**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan həm Ermənistanın, həm də regionun xilaskarına çevrilir

**Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşmasından sonra Azərbaycan Ermənistanla kommunikasiyaların açılmasında maraqlı olduğunu ən yüksək səviyyədə bəyan edib.**

Ermənistanda müəyyən qüvvələr bunun əleyhinə çıxsalar da, artıq reallıq onların da Azərbaycanın təklifləri ilə razılaşmaqdan başqa yolunun qalmadığını göstərir. Elə Ermənistan daxilində baş verənlərin təhlili də qeyd edilənlərin real təsdiqi qismində çıxış edir.

**Bakının şərtləri tam reallığı əks etdirir**

Azərbaycan Ermənistanla Rusiyanın vasitəçiliyi ilə əldə edilən sülh razılaşmasının bütün bəndlər üzrə icrasının vacib əhəmiyyət kəsb etdiyini daim diqqət mərkəzinə gətirir. Bakı bu istiqamətdə praktik addımların da mümkün qədər tez atılmasını vacib hesab edir. Ermənistanın üzləşdiyi mövcud reallıq da İrəvanın müvafiq razılıqlara əməl etməkdən başqa çıxış yolunun olmadığını təsdiq edir. Bunu rus ekspert Andrey Petrov da xüsusi olaraq vurğulayır: "Ermənistanda Nikol Paşinyan hər şeydən əvvəl hakimiyyətdə qalmaq məqsədini güdür. Əgər əvvəllər Azərbaycanla qarşıdurmaya təhrik etmək və müharibə yaratmaq onun üçün faydalı görünürdüsə, bu gün Ermənistanı hərbi yoldan dinc bir yola köçürmək proqramını öz mövqeyini qorumağın ən yaxşı yolu hesab edir. Erməni cəmiyyətindəki qəzəb mərhələsi sona çatdı. Artıq erməni ekstremizminin tərəfdarlarının insanları Robert Köçəryan və Serj Sarkisyan tərəfindən irəli sürülən mənasız millətçi və münaqişə fikirlərindən imtinaya dəvət etməyin vaxtı gəldi. Paşinyan Ermənistan vətəndaşları arasında baş verən bütün pis şeylərin sələfləri tərəfindən bomba kimi ortaya atıldığını dərk edir, başa düşür". Ekspert onu da qeyd edir ki, Paşinyan indi vətəndaşlara müxalif siyasətçilərin hər kəsi aldatdıqlarını göstərir: "Bunun üçün o, millətçi təbliğata faktlarla qarşı çıxmağa başlayıb. Cəmiyyətin bir hissəsi, əlbəttə ki, məlum həqiqətləri dilə gətirdiyi üçün ona inanmağa davam edəcək".

Burada xatırlatmaq yerinə düşərdi ki, Ermənistan müxalifəti məlum 10 noyabr üçtərəfli razılaşmasından sonra Nikol Paşinyana satqın damğası vurub onu hakimiyyətdən uzaqlaşdırmaq üçün birləşsə də, hələ ki, heç bir nəticəyə nail ola bilməyib. Paşinyan hakimiyyətini qoruyub saxlamaqda davam edir və politoloqların fikrincə, hələ Ermənistanda onu istefaya məcbur edə biləcək qüvvə mövcud deyil. Bu səbəbdəndir ki, Paşinyan 2021-ci ildə növbədənkənar parlament seçkilərinin keçirilməsini müxalifətə təklif edib. Lakin müxalifət seçkilərin ancaq Paşinyanın istefasından sonra mümkün ola biləcəyini deyir. Bunu da Paşinyan qəbul etmir. İrəvandakı Qafqaz İnstitutunun rəhbəri, politoloq Aleksandr İsgəndəryan "Kavkazskiy uzel" portalına açıqlamasında qeyd edir ki, hipotetik növbədənkənar seçkilər məsələsində müxalifət daxilində kəskin fikir ayrılıqları mövcuddur və bu da təəcüblü deyil. Çünki ölkədə dərin siyasi böhran hökm sürür. Onun fikrincə, hakim "Mənim addımım" blokundan başqa digər siyasi qüvvələr ancaq neqativ məqamlar ətrafında birləşib: "Onlar vahid proqram ətrafında yox, Paşinyana qarşı birləşiblər. Ona görə də müxalifət koalisiyasının daxilində Ermənistan üçün tipik olan rəqabət meydana çıxır. Serj Sarkisyan Nikol Paşinyana indiki baş nazirə sərf edən konstitusiya və "Seçkilər haqqında qanun" qoyub gedib. Bu konstitusiya və qanun hakim qüvvənin maraqlarına xidmət edir. Əgər hansısa qüvvə hansısa formada hakimiyyətə gəlsə və parlamentdə çoxluğa malikdirsə, o zaman hüquqi yollarla bu hökuməti kənarlaşdırmaq praktiki olaraq mümkün deyil". Politoloqun fikrincə, müxalifət başa düşür ki, əgər sabah növbədənkənar seçkilər olsa, onu udacaqları sual altındadır. İsgəndəryan qeyd edir ki, güclü küçə etirazlarını təşkil edə bilməyən zəif müxalifət hakim qüvvəyə seçkiləri keçirməməyin mümkünlüyü haqda mesaj verir. Ona görə də Paşinyan ya seçkiləri keçirmək istəmir, ya da elə indi keçirmək istəyir ki, orada haradasa 40 faiz səs yığsın və bundan sonra hakimiyyətdə qalan üç ilini də legitimləşdirsin. Ekspert qeyd edir ki, müxalifət 10 noyabr razılaşmasından dərhal sonra küçə etirazlarına başlamaqla mürəkkəb vəziyyətə düşdü, çünki bu etirazlar gözlənildiyi kimi izdihamlı alınmadı: "Mən bunu görmürəm ki, Paşinyan istefaya getməyə hazırlaşır. Və mən bunun üçün səbəb də görmürəm. İstefaya getmirlər, istefaya məcbur olurlar. Onu istefaya getməyə məcbur edəcək heç bir qüvvə mövcud deyil, hazırda mən bunu görmürəm. Paşinyanı dəstəkləyənlər əhalinin siyasi çaxnaşmalardan yorulmuş hissəsidir. Ermənistan sakinləri ikinci inqilab istəmirlər, birinci inqilabın nəticələri göz önündədir. Paşinyanın qatı əleyhdarları isə sadəcə olaraq onu devirmək üçün yetərsizdir". Məhz bu durumda hesab edilir ki, Ermənistanın Azərbaycanın şərtlərini qəbul etməsi artıq məcburidir və nəzərə alınmalıdır ki, bu şərtlər reallığı əks etdirir.

**Azərbaycanın təklifləri bütün regionun xeyrinədir**

Baş verənlərlə bağlı Rusiyanın "Lenta.ru" portalı da yazır ki, əslində, Azərbaycanla əməkdaşlıq Ermənistanın xilası deməkdir: "Azərbaycan hakimiyyəti son Qarabağ müharibəsinin nəticələrini qələbə kimi qiymətləndirir və bu səbəbdən nəqliyyat əlaqələrinin açılmasını hər şəkildə alqışlayır. Bakı bunun bölgənin beş dövlətinə - Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və İrana birdəfəlik fayda verəcəyini vurğulayır, çünki onların dəmir yollarını birləşdirəcək. Ermənistan hələlik bu təkliflərə daha ehtiyatlı reaksiya göstərir. Bununla belə, Paşinyan nəqliyyat əlaqələrinin bərpasının Ermənistanın blokadadan çıxarılmasına xidmət etdiyini də başa düşür. O, əldə olunan razılaşmaların həqiqətən bölgəyə fayda gətirəcəyini və regionun iqtisadi mənzərəsini dəyişdirə biləcəyini etiraf edir. Ekspert Aleksandr Krılov da bizimlə söhbətində nəqliyyat marşrutlarının Ermənistanın blokadadan çıxarılmasının mühüm yolu olduğunu, bunun ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün əsas ola biləcəyini qeyd edir. Xəritəyə də diqqətlə baxsanız, yeni magistral yolların Ermənistan üçün daha vacib olduğunu görə bilərsiniz.

Azərbaycan bu gün Ermənistandan başqa digər bütün qonşuları, yəni Rusiya, İran, Gürcüstan və Türkiyə ilə dəmir yolu əlaqəsinə malikdir. İndi Ermənistan da Azərbaycan vasitəsilə belə əlaqələrə malik ola bilər. Bu səbəbdən Emənistan üçün kommunikasiyaların bərpası mühümdür". Portal yazır ki, regional inkişaf və təhlükəsizlik üçün nəqliyyat və kommunikasiya infrastrukturunun qurulması vacibdir. Çünki bundan sonra region dövlətlərinin hər biri nəqliyyat dəhlizlərinin və arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaq. Eləcə də 30 ildən sonra Azərbaycan Ermənistan ərazisindən keçən nəqliyyat kommunikasiyaları vasitəsilə Naxçıvanla əlaqə imkanına, Ermənistan da Azərbaycan ərazisindən keçməklə Rusiyaya, İrana dəmir yolu çıxışı imkanına malik olacaq. Həmçinin, Azərbaycan ərazisindən keçməklə Türkiyə bazarına çıxış əldə edəcək, Türkiyənin və Rusiyanın dəmir yolu arteriyaları da birləşəcək. Portal qeyd edir ki, Azərbaycan Rusiya, Türkiyə, İran və Ermənistanın Naxçıvan dəhlizindən istifadəsində heç bir problem görmür. Deməli, bütün bu təkliflər həm də bütün region üçün vacibdir.

**Revanş çağırışları Ermənistana baha başa gələcək**

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Ermənistanın da daxil olduğu regional əməkdaşlığın qurulmasında maraqlıdır. Amma Ermənistan cəmiyyətində belə dəstək ala bilməyən bəzi qüvvələr buna qarşıdır. Belələri Azərbaycana qarşı reallıqdan uzaq fikir səsləndirir, bunun üçün daha güclü olmaq, ultramodern silahlar əldə etmək, mütəşəkkil bir ordu qurmaqdan dəm vururlar. Lakin Rusiya Siyasi və Hərbi Təhlil İnstitutunun direktor müavini Aleksandr Xramçixin bunu mümkünsüz sayır. O, Ermənistanda revanşist hisslərin mövcudluğunun təbii olduğunu bildirib: "Bakı qanuni olaraq Azərbaycana məxsus olan Qarabağın qaytarılması üçün 26 il gözləyib. Ermənistanda isə bu əraziləri özlərinki hesab edirlər. Deməli, siyasi baxımdan İrəvanda bəzilərinin verdiyi açıqlamalar bəlkə də təəccüb doğurmamalıdır". Amma onun sözlərinə görə, hərbi komponentə gəlincə, Ermənistan hədəflərinə çatmaq üçün Azərbaycandan güclü olmalıdır: "Ancaq buna necə nail olmaq olar, bilmirəm. Fikrimcə, bu, Azərbaycanın Ermənistandan daha çox resursa sahib olmasına, həmçinin iqtisadi vəziyyətinin daha güclü olmasına görə real deyil. Bakı hərbi baxımdan da İrəvandan əhəmiyyətli dərəcədə üstündür. Ən əsası isə, müharibənin nəticələrinə görə Azərbaycan əvvəlkindən də güclü oldu. Bu səbəbdən Ermənistanın Azərbaycanı necə ötüb keçə biləcəyini heç anlamıram. Bunu Ermənistanda da bilmirlər. Bu səbəbdən yaxşı olar ki, Azərbaycanla razılaşsınlar".

Qeyd edilən mövqe erməni ekspert Qrant Xaçatryan tərəfindən də bölüşülür.

Xaçatryan qeyd edib ki, baş verənlərə tamamilə fərqli bir səviyyədən baxmaq və müvafiq addımlar atmaq lazımdır: "Başqalarından nə istədiyimizi özümüz bilmədiyimiz təqdirdə Qarabağ məsələsində hər hansı ölkə bizə tərəfdaş olmağa borclu deyil. Bu səbəbdən Azərbaycanın şərtlərini qəbul etmək məcburiyyətimiz artır". Bütün bunlar Qarabağ məsələsində Azərbaycanın qalıcı qələbə qazandığını bir daha təsdiq edir. Ermənistanın Azərbaycanın dedikləri ilə razılaşmaqdan başqa yolu yoxdur və əks mövqedən çıxış edənləri, o cümlədən də revanşistləri daha sərt zərbələr gözləyir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**